

**XIDIR ALOVLU,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## TARİXİ YADDAŞ

Heydər Əliyevlə bağlı Azərbaycan milləti Azərbaycan tarixinə canlı bir cümlə yazdı:

"Heydər Əliyev olmasaydı, bugünkü Azərbaycan olmayacaqdı!".

Bu tarixi cümlədən sonra istər-istəməz bir sualla qarşı-qarşıya, üz-üzə dayanmalı olursan:

"Heydər Əliyev bu haqqı, bu hüququ necə qazandı?".

Bu suala bu sualı yaradan tarixin özü cavab verir:

XX yüzilin yetmişinci illərinə Böyük Azərbaycandan bölünə-bölünə, parçalana-parçalana yoxa çıxmaq ərəfəsində olan kiçik bir Azərbaycan gəlib çıxmışdı. Bu kiçik Azərbaycan təcavüzkarlığı ilə dünyanı vahiməyə salan Sovet İmperiyasının tərkibində bütün xüsusiyyətlərini itirərək, əriyib yoxa çıxmaq ərəfəsində idi. Azərbaycan belə bir vəziyyətində nəsli kəsilmək təhlükəsi qarşısında qalıb qorunmaq üçün adı qırmızı kitaba salınan qiymətli bir ağaca bənzəyirdi. Fərq onda idi ki, bu ağac qorunmurdu, əksinə, məhvolma təhlükələrinə düçar etdirilirdi. Onun ətrafını bürüyən əli baltalı, mişarlı qəddarlar, qəsbkarlar Böyük Azərbaycandan qırılıb qalan bu Kiçik Azərbaycanı da doğrayıb-dağıdıb axırına çıxmağa çalışırdılar.

Belə bir zamanda, 1969- cu ilin iyulunda, o vaxta qədər Azərbaycan DTK-nın sədri olan Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Bugün Azərbaycan üçün əlamətdar hadisəyə çevrildi. Heydər Əliyev həmin gündən başlayaraq, bütün həyatını Azərbaycanın həyatına bağladı.

Heydər Əliyevin kimliyini dərk etmək üçün keçmişimizdən nə ilə gəldiyimizə, gələcəyə nə ilə getdiyimizə nəzər salmalıyıq. Bilməliyik ki, keçmişimizdən nə ilə gəldiyimiz Heydər Əliyevlə bağlı olmasa da, bu günümüz və gələcəyimiz Heydər Əliyevlə bağlıdır.

Heydər Əliyev keçmişimizdə itirilənləri – milli mənliyimizi, adət-ənənələrimizi, yadlaşdırılan, özgələşdirilən tariximizi, qürur və heysiyyatımızı özümüzə qaytardı, özümüzü-özümüzə tanıtdı. Od olub milli ədavət, milli ayrı-seçkilik törədənlərin üstünə töküldü. Milli iqtisadiyyatımızı, incəsənətimizi, mədəniyyətimizi, memarlığımızı bərpa edib öz kökümüz, öz ənənələrimiz üzərində inkişaf etdirdi.

Gələcək nəsillər bütün bunlar üçün Heydər Əliyevə minnətdar olacaq.

Tariximizdə Heydər Əliyev minnətdarlıq, sevgi və məhəbbətlə yad ediləcək. Ona qarşı çıxıb Azərbaycanı fəlakətlərə düçar etmək istəyən əqidələri tarixi

düşmənlərimizin əqidələri ilə eyniləşən Ayaz Mütəllibovlar, İsa Qənbərovlar, Rəsul Quliyevlər, Etibar Məmmədovlar, İlyas İsmayılovlar və onların sıralarında duran digər cinayətkarlar isə nifrətlə, kinlə, qəzəblə xatırlanacaqlar.

Beləliklə, Heydər Əliyev Azərbaycan tarixində Azərbaycanın mövcudluğuna mane olan bütün təhlükələrlə üz-üzə, göz-gözə dayanıb onlara qarşı yorulmaq bilmədən mübarizə aparıb qələbələr dalınca qələbələr qazanan qəhrəmana çevrildi.

Biz bu gün tariximizi elə yazmalıyıq ki, gələcək nəsillər kimlərə minnətdarlıq, kimlərə nifrət etdiklərini bilsinlər.

Bu tarixin qısa xülasəsi ondan ibarətdir ki, 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi 83 il öncə yaradılmış dövlət müstəqilliyini bərpa etdi.

Tarixdə hakimiyyətə gəldiyi ilə getdiyi bilinməyən, fəaliyyəti hay-küydən ibarət yalançı inqilabçılar, təsadüfi dövlət başçıları çox olub. Azərbaycan da belə bir hadisə ilə üzləşdi. Heç bir siyasi dünyagörüşü, mübarizə təcrübəsi, dövlətçilik və idarəetmə bacarığı olmayan, bəziləri SSRİ, İran və Azərbaycanın dağıdılmasında marağı olan digər dövlətlərin xüsusi xidmət orqanları tərəfindən hazırlanıb meydanlara atılan təsadüfi adamlar müstəqilliyi bərpa edilən bu gənc dövlətdə hakimiyyəti ələ keçirdilər. Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov kimi Sovet İmperiyasına xidmət edənlər qovulduqdan sonra onların yerini, yenə də başda Əbülfəz Əliyev olmaqla bilavasitə və ya birbaşa həmin ölkələrə xidmət göstərən AXC-Müsavat qaragüruhu tutdu. Vur-tut bir il ərzində hakimiyyətdə olan bu qaragüruh rəsmən qeyd edilməsə də, faktiki olaraq gənc Azərbaycan dövlətini məhv edib sıradan çıxartdılar. Həmin dövrün siyasi mənzərəsi anarxiya, xaos, vətəndaş qarşıdurması, milli və irqi ayrıseçkilik zəminində ölkənin qondarma Talış-Muğan Respublikası kimi respublikalara bölünməsi, iqtisadiyyatın yox edilməsi, rus-erməni hərbi birləşmələrinin əraziləri işğal etməsi, terror və təxribatların hər yanı bürüməsi kimi neçə-neçə dəhşətli hadisələrdən ibarət idi.

Sovet İmperiyasının 1969-cu ilə qədər Azərbaycanın məhvi ilə bağlı gizli şəkildə həyata keçirdiyi çoxsaylı proseslər 90-cı illərin əvvəllərindən başlayaraq, açıq-açığına həyata keçirilməyə başlandı.

1969-cu ilin iyul ayında olduğu kimi, 1993-cü ilin iyun ayında da Allah rəhm edib qoruyub saxladığı Heydər Əliyevi Azərbaycan rəhbərliyinə gətirdi. Heydər Əliyevin Azərbaycanın məhvolma ərəfəsində hakimiyyətə gəlişi bütövlükdə Azərbaycan millətinin yekdil və təkidli tələbləri nəticəsində baş verdi.

Heydər Əliyevin ən böyük xidməti Sovet İmperiyası dağıldıqdan sonra keçmiş sovetlər məkanında müstəqillik əldə edən digər ölkələrdən fərqli olaraq xarici düşmənlərlə birlikdə özünü müxalifət adlandıran daxili düşmənlər - AXC – Müsavat cütlüyü və başqaları tərəfindən dağıdılan Azərbaycanı böyük təhlükələri aradan qaldıra-qaldıra yenidən bərpa etməsi oldu.

Azərbaycan ölüm ayağından qalxıb ağır xəstə kimi yavaş-yavaş yeriməyə başladı, məhvedici təhlükələrdən xilas olub müstəqil dövlət kimi dünyada tanındı.



Bundan sonra hay-haraylara, qışqırıqlara məhəl qoymayan Heydər Əliyevin Azərbaycan adlı karvanı gecəni-gündüzə qatıb gələcəyə doğru inamla addımlamağa başladı.

Çindən tutmuş Amerikaya qədər dünyanın böyüklü-kiçikli bütün dövlətlərinin başçılarının dönə-dönə hesablaşdıqları, məsləhət aldıqları Heydər Əliyev kimi əzəmətli dünya siyasətçisini cılız müxalifət liderləri ağlasığmaz böhtanlar, iftiralar uydurub düşmən adlandırmaqdan çəkinmədilər. Küçə, bulvar psixologiyası təbliğ edən «Yeni Müsavat», «Azadlıq», «Hürriyyət», «Monitorinq», «İstiqlal» kimi qəzet və jurnallarda ağa qara deyə-deyə aləmə iftiralar, böhtanlar püskürdülər.

Tarixən millətimizi zillətə, zəlalətə sürükləyən, müstəqilliyini əlindən alan səbəbləri dərindən bilən Heydər Əliyev onları millətin şüurundan bir dəfəlik çıxarmaq üçün var qüvvəsi ilə çoxlu tədbirlər həyata keçirdi. Belə tədbirlərdən biri, bəlkə də birincisi Azərbaycan dilini müstəqil dil kimi formalaşdırmaq oldu. Minillərlə İran- Turan dövlətlərinin hökmdarları azərbaycanlı olsalar da, dövlət dili fars dili olduğu üçün tarixdə Azərbaycan dövləti deyil, fars dövləti yaşayıb. Nədənsə, tarixən millətimiz özgələşmə, yadlaşma xəstəliyinə tutulub fars gələndə farslaşıb, türk gələndə türkləşib, rus gələndə ruslaşıb...

Heydər Əliyevin bütün maneələri dəf edərək, Azərbaycan dilini dövlət dili etdi. Bu, Azərbaycan rəhbərliyində olduğu dövrlərdə onun bütün əleyhdarları susdurub həyata keçirdiyi ən böyük xidmətlərdən biri idi. O, qarşıya çıxan bütün çətinlikləri aradan qaldırıb nəhayət ki, bu istəyini reallaşdırdı:

Millətimiz Azərbaycan milləti, dilimiz Azərbaycan dili oldu!

Tariximizdə özünü təmsil, tərənnüm etdirən milləti Azərbaycan milləti, dili Azərbaycan dili olan Azərbaycan dövləti yarandı!

Bu keşməkeşli Azərbaycan tarixində Azərbaycanın ən böyük qələbələrindən, ən böyük nailiyyətlərindən idi!

Beləliklə, bütün millətlərə böyük rəğbəti olan bu Bəşəri İnsan millətimizin adını, dilini dəyişdirib yox etməyə çalışan namərdlərin yaratdıqları ən qorxulu təhlükələrin, o cümlədən Azərbaycan dilinin, millətinin, dövlətinin itirilməsinin qarşısını cəsarətlə alıb Azərbaycan millətini, Azərbaycan dilini, Azərbaycan dövlətini öz adı, öz ünvanı ilə birdəfəlik əbədiləşdirdi.

Hazırda müdrikliyinin zirvəsinə qədəm qoyan bu İNSAN millətinin sevinci ilə sevinən, kədəri ilə kədərlənən ən əzəmətli, ən böyük İNSANDIR!

Fitri istedada, vətənə, millətə bağlılığa, humanistliyə, dərin savada, hədsiz çalışqanlığa, prinsipiallığa, xeyirxahlığa, başladığı işi axıra çatdırmaq bacarığına, haqsızlığa nifrət etməsinə, dünyada gedən siyasi prosesləri dərindən bilməsinə və təhlil etməsinə, düzgün siyasi orientasiya seçmək məharətinə və bu kimi digər ali keyfiyyətlərinə görə Heydər Əliyev dünya liderlərinin ön cərgələrində özünə layiq yer tutdu.

Allah ona millət yolunda mübarizə aparmaq xoşbəxtliyi bəxş edib. O, təkcə xarici düşmənlərlə əlbir olub ölkəmizi məhvə sürükləyən müxalifət adlı daxili

düşmənlərlə deyil, həm də, sözün tam mənasında, ətrafında bəzi etibarsız məmurların satqınlığı, xəyanəti ilə də üzləşdi. Lakin sarsılmadı, bütün əleyhdarlarını sarsıtdı.

Heydər Əliyev təkcə Azərbaycanla bağlı deyil, həm də dünyada gedən siyasi proseslərlə bağlı düzgün seçilmiş siyasət yeritdi. Azərbaycanı dünya siyasətinin qaynadığı qazanda bişirə bildi. Tarixi təkrarlayıb onu yenidən, yeni bir keyfiyyətlə Şərq-Qərb, Şimal Cənub sivilizasiyalarının mərkəzinə çevirdi. Tarixi İpək Yolunu bərpa edib reallaşdırmaqla Azərbaycanı iqtisadi əlaqələr məkanına çevirdi. Rusiya, İran, Qazaxıstan, həmçinin Türkmənistan kimi ölkələrin hələ ki, reallaşdıra bilmədiyi böyük bir problemi — Xəzərin dərin qatlarından neft və qazın çıxarılması problemini həll etdi və onları dünya bazarlarına nəql etdirdi, Azərbaycanı Xəzərətrafı ölkələrin neft və qaz istehsalı və ixracı sahəsində mərkəzə çevirdi... Yaxın və Orta Şərq ölkələrinin siyasi tarazlığı və orientasiyası üçün çox işlər gördü, bu sahədə dünyanın aparıcı ölkə və təşkilatlarında fikirlər formalaşdırdı.

Müharibə çağırışları ilə süni nüfuz qazanmağa çalışan müxalifət Ermənistanla Azərbaycan arasında bütün sahələrdə müharibə getdiyini və Azərbaycanın xeyrinə qələbələr qazanıldığını görə bilmirlər. Onlar başa düşə bilmirlər ki, Heydər Əliyevin atəşkəs yaratması, əsrin müqaviləsini bağlaması, Bakı-Tbilisi-Ceyhan- Ərzurum neft- qaz kəmərlərini lahiyələşdirməsi və çəkdirməsi, türkdilli xalqlarla çoxsaylı tədbirlər keçirməsi, demokratiyaya, azad mətbuata geniş imkanlar verməsi, çoxsaylı islahatlar aparması kimi neçə-neçə cəsarətli ideyaları həyata keçirməsi Ermənistanla aparılan müharibədə çaldığı qələbələrdir.

Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütövlükdə türkdilli ölkələrin inkişafı, tərəqqisi üçün tədbirləri çoxsaylı təəssüfkeşlik missiyaları həyata keçirdi.

Heydər Əliyev Azərbaycanın bir daha hər hansı bir dövlətin vassalına çevrilməməsi, müstəqilliyinin qorunub saxlanılması üçün mükəmməl əsaslara söykənən konsepsiyasını, təlimini, ənənəsini yaratdı.

Heydər Əliyev əyalətçiliyə, reqionçuluğa, tayfabazlığa, rüşvətxorluğa nifrət edən, mübarizə aparan ən prinsipial mövqeli insandır. Təəssüflər olsun ki, heç bir abır-həya gözləməyən, bayquşlar kimi ağız-ağıza verən daxili düşmənlər onun bu eybəcərliklərə yol verdiyi haqqında iftiralar uydurub, böhtanlar yaydılar.

Azərbaycanı tanımayanlar onun tarixi bəlalarını bilməyənlər Heydər Əliyevi tanıya bilməzlər.

Özünə Azərbaycanın dostunu dost, düşmənlərini düşmən kimi bilməyənlər Heydər Əliyevi tanıya bilməzlər.

Sinəsində vicdan yerinə iftiralar gəzdirən ifritə, iblis xislətli partiya başçıları, qəzet redaktorları Heydər Əliyevi tanıya bilməzlər.

Vətəndaşlığını, insanlığını, milli mənsubluğunu qrantlara sata-sata Azərbaycanın düşmənləri qarşısında diz çöküb əl açanlar Heydər Əliyevi tanıya bilməzlər.



Nəfsinə qul olanlar, tamahının qabağında əyilib milləti talayanlar, mala-varidata əslini-nəslini satanlar Heydər Əliyevi tanıya bilməzlər.

Qanında milli heysiyyət, milli qürur olmayan Ayaz Mütəllibovlar, İsa Qəmbərovlar, Rəsul Quliyevlər, Etibar Məmmədovlar, İlyas İsmayılovlar və onların tör-töküntüləri Heydər Əliyevi tanıya bilməzlər.

Heydər Əliyevi tanımaq üçün onun varlığını çırağa döndərib vətən üçün necə yandırdığını bilməlisən!

Heydər Əliyevi tanımaq üçün onun həyatından çəkinməyib sinəsini Azərbaycanın təhlükələrinin qarşısında sipər etdiyini bilməlisən.

Heydər Əliyev Azərbaycanı ətalətə, məhvə sürükləyən bütün maneələrə qarşı ardıcıl mübarizə aparan ən böyük insandır!

Heydər Əliyev milləti millət kimi təmsil etdi, ən ləyaqətli övladlarının səsini-sorağını dünyaya yaydı. Dədə Qorquddan tutmuş Nizamiyə, Füzuliyə, Tusiyə, Bəhmənyara, Nəsimiyə, Babəkə, Cavanşirə, Sabirə, Səttara, Tahirə,Toğrula, Cavidə qədər hamıya- milləti təmsil edən bütün qabiliyyətli insanlara yiyə durdu, şöhrətlərini, şərəflərini uca tutdu, uca saxladı.

Onun qələbələri qəlpə-qəlpə qayaları qoparıb sinəsindən incilər, almazlar çıxaranların qələbələrinə bənzəyir.

Heydər Əliyev!

O, zəmanəmizin evi Azərbaycan, ünvanı Azərbaycan olan ən böyük insanıdır!

Onun yaşı da, fəaliyyəti də zamanla ölçülür.

Onun adı çəkiləndə zamanın ölçüləri itir. Azərbaycanın dünəni, bu günü, gələcəyi yada düşür.

O, Azərbaycanı məhvə, məhkumluğa aparan düşmənləri əzə-əzə addımlayan qəhrəmana bənzəyir.

O, sağlığında əfsanələşən Azərbaycan qəhrəmanıdır.

Qəhrəmanlıqlarla dolu tariximizdə Azərbaycanın bəlalarına qarşı heç bir sərgərdə onun qədər mübarizələrlə dolu yol keçməmişdir.

Heydər Əliyev bütün həyatını Azərbaycana həsr etdi. Hamı bildi ki, Azərbaycan Heydər Əliyevin həyatı, varı, dövlətidir.

Onun fikirləri qayaların qalın qatlarından qətrə-qətrə süzülüb gələn nur bulaqlar kimi millətin varlığına axdı, milləti saflaşdırdı, duruldu.

İndi Azərbaycan torpağa əkilən palıd pöhrəsi kimi boy atır, böyüyür.

Bu gün Heydər Əliyevin əllərilə əkilən Azərbaycandan gələcəkdə özünün mövcudluğunu qoruyub saxlayan, bərpa edən bütöv Azərbaycan göyərir.

Heydər Əliyev özü əkdiyi, özü becərdiyi Azərbaycan adlı bağa bağbanlıq edir.